

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 86 (23.498)

6 iyun 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Kommunal təyinatlı nəqliyyat vasitələri istifadəyə verilmişdir

***Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinə, eləcə də müvafiq rayon kommunal müəssisələrinin və bələdiyyələrin istifadəsinə kommunal təyinatlı müxtəlif nəqliyyat vasitələri verilmişdir. 14 nəqliyyat vasitəsindən 5-i bərk tullantıların daşınması üçün “Kamaz”, 6-sı məişət tullantılarının daşınması üçün, 3-ü isə digər kommunal təyinatlı texniki nəqliyyat vasitəsidir.***



Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov bu münasibətlə keçirilən tədbirdə bildirmişdir ki, muxtar respublikamızda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri bütün yaşayış məntəqələrinə müasir görünüş vermişdir. Bu abadlığın və ən əsası səliqə-sahmanın qorunması isə başlıca vəzifələrdəndir. Məhz buna görə də kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması üçün məqsədyönlü işlər görülür. Bu istiqamətdə həyata keçirilən tədbirlərin əsas məqsədi əhaliyə göstərilən xidmətin səviyyəsini daha da yüksəltməkdən ibarətdir. Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinə, müvafiq rayon kommunal müəssisələrinin və bələdiyyələrin istifadəsinə nəqliyyat vasitələrinin verilməsi də belə silsilə tədbirlərin davamıdır.

Baş nazir onu da bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən kommunal müəssisələrin, bələdiyyələrin, yerli icra orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Belə ki, 2017-ci ilin əvvəlindən etibarən kənd yaşayış məntəqələrində məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətlərinin bələdiyyələr tərəfindən həyata keçirilməsinə başlanılıb və bu layihə uğurla davam etdirilir. Muxtar respublikamızda pandemiyanın az hiss edilməsinin səbəblərindən biri də, məhz vaxtında gigiyenik qaydalara tam əməl olunması, binaların zirzəmilərinin daim təmiz saxlanılması, məişət tullantılarının məhvi və bu istiqamətdə digər qabaqlayıcı tədbirlərin yüksək səviyyədə təşkili ilə əlaqədardır.

Göstərilən qayğının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq tapşırıqlarına uyğun olaraq yeni alınan 5 ədəd “Kamaz” markalı nəqliyyat vasitəsinin dəyərinin ödənilməsi üçün, ümumilikdə, 627 min 760 manat vəsait ayrılmışdır. Qeyd edək ki, Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinə verilən həmin nəqliyyat vasitələri 2020-ci il istehsalı olmaqla, müasirtipli texniki avadanlıqlarla təchiz edilmişdir. Yeni istifadəyə verilən “Kamaz” tipli nəqliyyat vasitələrinin 3-ü 14 kubmetr, 2-si isə 10 kubmetr yükgötürmə qabiliyyətlidir.



Tədbirdə Şərur Rayon Kommunal Müəssisələr Kombinatına 2 kommunal təyinatlı texniki nəqliyyat vasitəsi, Babək Rayon Kommunal Müəssisələr Kombinatına 1 texniki təyinatlı nəqliyyat vasitəsi, eləcə də rayonun Nehrəm və Cəhri bələdiyyələrinin hər birinə 1 ədəd olmaqla, məişət tullantısı daşıyan, Ordubad Rayon Kommunal Müəssisələr Kombinatına 1 məişət tullantısı daşıyan, Culfa Rayon Kommunal Müəssisələr Kombinatına və rayonun Yaycı bələdiyyəsinə, həmçinin Şahbuz Rayon Kommunal Müəssisələr Kombinatına ayrılıqda 1 məişət tullantısı daşıyan nəqliyyat vasitələri verilmişdir.

Səbuhi Məmmədov təqdim edilən nəqliyyat vasitələrindən istifadənin işin keyfiyyətinin daha da yüksəlməsinə təsir edəcəyini bildirmiş, dövlətimizin göstərdiyi qayğıdan lazımınca yararlanmağı tövsiyə etmiş, kollektivə uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti**

## İcbari tibbi sığortanın tətbiqi əhali sağlamlığının qorunmasında mühüm amildir

*İcbari tibbi sığorta işləyən və işləməyən əhalini əhatə edən sığorta sistemi olmaqla, bir növ həmrəylik prinsipi əsasında hər kəs üçün tibbi xidmətləri özündə birləşdirən bir layihədir. Müasir dünyada səhiyyənin maliyyələşdirilməsinin yeni forması olan icbari sığortanın əsas məqsədi təkmil maliyyələşmə mexanizmləri əsasında əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəltmək və əlçatanlığını təmin etməkdir. Aparılan təhlillər göstərir ki, icbari tibbi sığortanın tətbiq edilməsi zamanı yaradılan nəzarət mexanizmi səhiyyə xidmətləri sahəsində keyfiyyətin tam təmin olunmasına, bu xidmətlərdən faydalanmaq istəyənlərin öz hüquq və öhdəliklərini başa düşməsinə, tibb işçilərinin məsuliyyətlərinin artırılmasına şərait yaradır ki, bu zaman insanlar istənilən vaxt dövlətin zəmanəti əsasında xidmətlərdən ödənişsiz şəkildə yararlana bilirlər.*

İcbari tibbi sığorta sisteminin dünya üzrə təcrübəsinə nəzər salsaq, görərik ki, əksər inkişaf etmiş ölkələrdə xərclərin böyük hissəsi ya dövlət, ya da sosial sığorta qurumları tərəfindən ödənilməkdədir. Burada icbari tibbi sığorta fondları dövlət büdcəsi, işəgötürənlərin köçürmələri və işçilərin ödənişləri hesabına formalaşır. Tibbi sığorta ödənişi əməkhaqqı fondunun 13-14 faizini təşkil edir. Çoxkanallı maliyyələşdirmə sistemi səhiyyə maliyyəsi sahəsində zəruri zəmini hazırlayıb sabit inkişafın təmin olunmasına şərait yaradır. Bu cür mexanizm Almaniya, Fransa, Hollandiya, İsveçrə, Kanada və Yaponiyada daha uğurlu nəticələr vermişdir.

Ölkəmizdə son illər ərzində həyata keçirilən sosial islahatların daha da dərinləşdirilməsi, həmçinin dünya sisteminə inteqrasiya icbari tibbi sığortanın tətbiq edilməsini şərtləndirməkdədir. Çünki bu tətbiqetmə əhalinin sosial müdafiəsinin təmin edilməsi formasıdır. Səhiyyə sisteminin təkmilləşdirilməsi istiqamətində “Tibbi sığorta haqqında”, “Özəl tibb fəaliyyəti haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının qanunları, “İcbari tibbi sığortanın tətbiqi konsepsiyası”nın təsdiq edilməsi haqqında, “İcbari tibbi sığorta üzrə Dövlət Agentliyinin yaradılması haqqında”, “Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamları mühüm hüquqi-iqtisadi baza formalaşdırmışdır.





Qeyd etmək lazımdır ki, “İcbari Tibbi Sığorta” haqqında qanun 20 il əvvəl qəbul olunmasına baxmayaraq, müəyyən səbəblərə görə tətbiq edilməmişdir. Sonralar isə ilkin olaraq Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına əsasən icbari tibbi sığortanın tətbiqi edilməsi pilot layihələr formasında Yevlax, Mingəçevir, Ağdaş və Naxçıvanda həyata keçirilmişdir. 2020-ci ildən isə bütün ölkə ərazisində rəsmi surətdə həyata keçirilməyə başlanılmışdır.

Muxtar respublikada icbari tibbi sığorta istiqamətində ilk addım Ali Məclis Sədrinin müvafiq fərmanı əsasında 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaradılmasıdır. Bundan sonra ilk olaraq 2017-ci ilin may ayında Sədərək, 2019-cu ilin yanvar ayında Şərur, iyul ayında Kəngərli, noyabr ayında Şahbuz, dekabr ayında isə Ordubad və Babək rayonlarında icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər həyata keçirilmişdir. Bununla əlaqədar olaraq artıq bu rayonların mərkəzi xəstəxanaları publik hüquqi şəxs statusu almış, onların işçilərinin aylıq vəzifə maaşları artırılmışdır. Mərkəzi xəstəxanalarda yeni tibbi avadanlıqlar quraşdırılmış, bilikli və təcrübəli həkim-mütəxəssislər işə cəlb olunmuşdur.

Şübhəsiz ki, ölkəmizdə bu ildən başlayaraq geniş tətbiq olunan icbari tibbi sığorta sisteminin muxtar respublikada da fəaliyyəti üçün lazımı şərait mövcuddur. Ötən dövrdə həyata keçirilən pilot layihələrin ilk məkanlarından birinin muxtar respublika olması da bu istiqamətdə mühüm təcrübə əldə edilməsindən xəbər verir. Belə ki, müxtəlif xidmətlərin müvafiq bölmələr üzrə elektron qaydada həyata keçirilməsi və vahid məlumat bazasında toplanması həm müraciəti qeydə alanlar, həm də müraciət edənlər üçün prosedurları xeyli sadələşdirir. Tibbi sığortanın əsas xidmətlər bazasına isə müasir dünya təcrübəsi əsasında ən kiçik xidmətlərdən tutmuş, təcili yardım, peyvəndlər, ilkin səhiyyə xidməti, laborator müayinələr, cərrahiyyə əməliyyatları, əhalinin ixtisas həkiminə qədərki müayinəsi, tibbi göstərişlərə əsasən müvafiq ixtisas həkimlərinə və əlavə müayinələrə göndərilməsi, ambulator xidmət təminatı, stasionar müayinə, uşaqların peyvənd təqvimi əsasında planlı vaksinasiyası, hamiləlik və doğuş xidməti, ciddi dispanser müşahidə və sair daxildir.

İcbari tibbi sığortanın tətbiq edilməsi gələcəkdə xeyli imkanlar və müsbət nəticələr vəd etməkdədir. İlk növbədə, dövlət büdcəsindən asılılığın aradan qalxması deməkdir ki, bu da maliyyə sabitliyinin qorunması üçün vacib şərtlərdən biridir. Məlum olduğu kimi, muxtar respublikanın 2020-ci il üçün təsdiq edilmiş büdcəsində səhiyyə xərcləri orta hesabla 13 milyon 700 min manat nəzərdə tutulub ki, bu xərclər xəstəxanaların və səhiyyə sahəsində müəyyən olunmuş proqramların maaliyyələşdirilməsinə yönəldiləcəkdir. Bunu ötən illə müqayisə etdikdə xərclərdə orta hesabla 84 faiz azalmanın şahidi ola bilərik ki, bu da cari ildən başlayaraq icbari tibbi sığortanın tətbiqi ilə əlaqədardır. Digər tərəfdən tibb işçilərinin maaşlarının artımına səbəb olmaqla yanaşı, əhalinin sağlamlığının təmin olunması, vaxtaşırı müayinədən keçirilməsi və onların sosial rifah hallarının yaxşılaşmasına kömək edəcəkdir. Gələcəkdə xarici ölkələrə müalicə üçün gedənlərin sayının əhəmiyyətli dərəcədə azalacağı ehtimalları, səhiyyə sistemində mərkəzləşdirilmiş idarəetmə sistemlərinin yaradılması, məlumat bazalarının təkmilləşdirilməsi də icbari sığortanın tətbiq edilməsinin yaradacağı əlavə imkanlardandır. Daha bir mühüm faktor kimi icbari tibbi sığorta işəgötürənlər və müəssisələrin sağlam işçi potensialına sahib olmaları deməkdir ki, bu da hər sahibkarın nail olmaq istədiyi əsas məqsədlərdən biri kimi onların bu proseslərə marağını stimullaşdıracaqdır.

Bu və ya digər müsbət amilləri nəzərə alaraq əminliklə deyə bilərik ki, icbari tibbi sığortanın tətbiq olunması muxtar respublikada səhiyyə sisteminin son texnoloji imkanlar və vasitələrlə təchiz olunması, ixtisaslı tibbi personalın formalaşması ilə yanaşı, əhali sağlamlığının müdafiəsi istiqamətində də yeni imkanlar açacaqdır.

**Eltun İBRAHİMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru***

## Əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açıb, sosial qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluğu təmin edilib.

Müvafiq Dövlət proqramının icrası ilə əlaqədar, ilin əvvəlində muxtar respublikanın əmək bazarı təhlil olunub, boş iş yerlərinin toplanması təmin edilib. Görülən bu işlərlə yanaşı, muxtar respublikada işaxtaran və işsiz şəxslərin məşğulluğunun təmin olunması istiqamətində əmək yarmarkalarının təşkili də diqqət mərkəzində saxlanılır. Bu məqsədlə iyun ayının 5-də Sədərək rayonunda keçirilən əmək yarmarkasına 2-si dövlət, 4-ü isə özəl sektordan olmaqla, ümumilikdə, 6 müəssisədən 73 boş iş yeri çıxarılıb. Tədbirdə 12 nəfərə işə göndəriş verilib, 4 nəfər isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyata alınıb.

Qeyd edək ki, növbəti əmək yarmarkası iyunun 9-da Kəngərli rayonunda təşkil olunacaq.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Dadlı və faydalı
# *Zeynəddin çiyələyi*

***Giləmeyvələr içində özünəməxsus dadı, bir çox faydaları ilə seçilən çiyələyi, yəqin ki, xoşlamayan insan tapılmaz. Həqiqətən də, yaz və yay aylarında böyükdən-kiçiyə bu giləmeyvə hər kəsin sevimlisi olur. Buna görə də çiyələk biznesini gəlirli bir iş hesab etmək olar. Babək rayonunun Zeynəddin kəndində çiyələk yetişdirilməsi ilə məşğul olan ailə təsərrüfatının timsalında bunun bir daha şahidi olduq.***

Əvvəlcə qeyd edək ki, bu giləmeyvə muxtar respublikamızın bütün bölgələrində yetişdirilir. Lakin bazarı çiyələklə təmin edən bölgəmiz, əsasən, Zeynəddin kəndidir. Dad-tamı, xoş ətri ilə Zeynəddin çiyələyi, necə deyərlər, mövsümün brend məhsuluna çevrilib. Kənd sakini Vətən Abbasov isə çiyələk yetişdirilməsi ilə məşğul olan ailə təsərrüfatı yaradıb.



Sahibkarın sözlərinə görə, Zeynəddində çiyələk əkini ilə, demək olar ki, hər kəs məşğuldur. Hansı həyətə, bostan sahəsinə üz tutsan, mütləq çiyələk tapacaqsan. Çünki bu kəndin torpağı, suyu çiyələk əkini üçün çox əlverişlidir. Odur ki, kənd sakinləri bu sahədə kifayət qədər təcrübəyə malikdirlər. Lakin çiyələk yetişdirilməsini indiyədək biznes şəklində inkişaf etdirən olmayıb. Buna görə də 5 min 500 kvadratmetrlik sahədə çiyələk əkib-becərməyə başladıq. Məqsədimiz isə Naxçıvan bazarını dadlı, keyfiyyətli çiyələklə təmin etməkdir.

Zeynəddində olarkən ailə təsərrüfatı üzvlərinin fəaliyyətini izlədik. Onların bu sahəyə maraqlarını hiss etmək çətin deyildi. Hər bir təsərrüfat üzvü böyük qayğı tələb edən bu zərif bitkinin, necə deyərlər, elə bil başına fırlanırdı. O anda düşündüm ki, burada təəccüblü nə var? Öz işlərinə bağlı insanlar hər zaman zəhmətkeş olurlar. Çünki onlar bilirlər zəhmət çəkən bəhrəsini də görür. Elə bu zəhmətkeş ailə kimi gəlir əldə edir, güngüzəranlarını yaxşılaşdırırlar. Bu yazıda bəhs etdiyim ailə təsərrüfatı üzvləri həm də muxtar respublika sakinlərinin tələbatını ödəmək kimi bir vəzifəni yerinə yetirirlər.



Öyrəndim ki, təsərrüfat üzvləri əvvəlcə çiyələk əkinini istixanalarda həyata keçiriblər. Məhsul bol olsa da, dadı və keyfiyyəti kifayət qədər ürəkaçan olmayıb. Buna görə də çiyələk əkinini kəndin bol minerallı və məhsuldar torpağında aparmağı qərara alıblar. Burada becərilən bitkilər Türkiyə sortudur. Aylıq sort olan bu çiyələklər dad-tamı ilə seçilir və ildə iki dəfə məhsul verir.

Vətən Abbasov deyir ki, sahədə məhsul yığımı mayın əvvəlindən həyata keçirilir. Hər gün 350 kiloqramadək çiyələk yığılır. Yığım hələ 10-15 gün davam edəcək. İkinci yığım isə avqust-sentyabr aylarında aparılacaq. 3 ildən sonra isə yeni əkin keçiriləcək. Daha çox məhsul əldə etmək üçün yeni şitillik sahəsi yaradılıb və şitil yetişdirilir. Cari ilin mart ayında buraya birillik məhsuldar Amerika sortu əkilib. Bu sortun giləmeyvələri daha iri olması və məhsuldarlığı ilə fərqlənir. Onun şitilləri artırılaraq əkin sahələrinə köçürüləcək.

Vətən Abbasov deyir ki, məhsulun alıcısı başının üstündədir. Bu günədək bazara 4 tondan çox məhsul çıxarılıb. Sahibkar bu gün muxtar respublikada ailə təsərrüfatının fəaliyyətinə yaradılan şəraitdən də razılığını bildirdi. Hər həftəsonu Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satışı yarmarkasında iştirak edən təsərrüfatçı satışda heç bir çətinliyinin olmadığını da dedi.

Ləklərdə məhsul bolluğu bir daha əminlik yaradır ki, torpağı sevsən, zəhmətdən qaçmasan, bəhrəsini artıqlaması ilə görərsən. Nəticə isə göz qabağındadır. Hazırda bazarda bu məhsul boldur və hər kəs yerli, keyfiyyətli çiyələk əldə edə bilir. Vətən Abbasov əminliklə və qürur hissi ilə deyir ki, onların zəhməti nəticəsində bu gün muxtar respublikaya çiyələk idxalının qarşısı alınıb. Bazarda həm dadı, həm də keyfiyyəti ilə seçilən yerli məhsul da hər kəsin ürəyincədir. Qiymətlər də münasibdir.

Zeynəddin çiyələyi artıq Naxçıvanın daha bir ləziz məhsuluna çevrilib. Əminik ki, ləziz Naxçıvan çiyələyinin sorağı tezliklə xarici bazardan da gələcək.

**Gülcamal TAHİROVA**

*İlin sevimli fəsli yaz təbiətə canlılıq, əlvanlıq verir. Günəşin al-qızılı şəfəqləri ilə canlanıb, səmaya boylanan müxtəlifrəngli güllərin-çiçəklərin ətri insanı özünə valeh edir. Hər yerə hakim kəsilən rəngarəng təbiət gözəllikləri həm də təbiətin bir parçası olan arıları özünə cəlb edir. Zəhmətkeş arılar bir ailə, toplum halında artıq bir neçə aydır ki, yuvalarından çıxıb təbiətin qoynuna qaçır, gözəl ətir saçan güllərə, yaşıl yamaclara, çiçək açmış ağaclara, çəmənlərə, meşələrə uçur, hər bitki və çiçəkdən şirə çəkirlər. Yaxşı şirə tapan kimi isə qayıdıb o biri arılara da xəbər verir, birgə növbəti məhsul hazırlığına başlayırlar. Arılara qulluq etmək vəzifəsi isə insanların öhdəsinə düşüb. İnsanlar da təsərrüfatlarında arıların yetişdirilməsi, çoxaldılması, arıçılıq məhsullarının istehsalı və emalı ilə məşğul olurlar. Hətta deyirlər ki, arılar onlara qulluq edən insanı tanıyır, ona sədaqətli olur. İnsan və arı əməyi birləşəndə isə möcüzə hesab etdiyimiz məhsullar ortaya çıxır...*

# İnsan və arı zəhməti birləşəndə...

Doğma diyarımız Naxçıvanın əlverişli iqlimi, zəngin bitki örtüyü, göstərilən dövlət qayğısı və dəstəyi iqtisadi cəhətdən gəlirli olan bu sahənin inkişafına geniş imkanlar açır. Arıçılığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” qarşıya qoyulan hədəflərə nail olmağa kömək edir. Muxtar respublikamızda arıçılıq təsərrüfatlarının inkişafına dövlət maliyyə dəstəyinin göstərilməsi, balın emalı və qablaşdırılması üçün yeni istehsal sahələrinin istifadəyə verilməsi, balın satışı üçün yaradılan şərait və həyata keçirilən digər tədbirlər ildən-ilə arı ailələrinin sayının artmasına səbəb olur. Hazırda Naxçıvan Muxtar Respublikası Arıçıları İctimai Birliyi arıçılıq təsərrüfatlarının fəaliyyətini tənzimləyir, arıçıların rastlaşdıqları problemlərin vaxtında həllinə çalışır.





Son illər arıçılar balla yanaşı, qiymətli arıçılıq məhsulları olan vərəmum, çiçək tozu, güləm, arı südü və digər xüsusi tibbi əhəmiyyətə malik olan məhsullar istehsal edirlər ki, belə qiymətli məhsullara tələbat ilbəil çoxalır. Bu, bazarın yerli istehsal hesabına təmin edilməsində və məhsulların ixracında da mühüm rol oynayır. Naxçıvan şəhərində mütəmadi olaraq keçirilən “Arıçılıq məhsulları – bal festival”ları digər təsərrüfat sahiblərinin də bu sahəyə marağını artırır.

Dövlətin arıçılığın inkişafına göstərdiyi dəstək muxtar respublikamızın digər bölgələri kimi, Ordubad rayonunda da arıçılıqla məşğul olan ailə təsərrüfatlarının sayını artırıb. Rayonun səfalı təbiəti ilə seçilən Tivi kəndində bu sahəsi ilə məşğul olanlar kifayət qədərdir. Onlardan biri – ailə təsərrüfatçısı Xəqani Cəfərovla həmsöhbət oluruq. O deyir ki, 1993-cü ildən arıçılıqla məşğuldur: – Bu peşə mənə atamdan yadigar qalıb. Atam da kənddə seçilən arıçılardan idi. Mən də uşaqlıqdan ona baxaraq bu işi öyrənmişəm. Hazırda 23 arı ailəsinə baxıram. Şan və süzmə bal, vərəmum hazırlayıram. Muxtar respublikamızda keçirilən kənd təsərrüfatı yarmarkalarında, o cümlədən “Arıçılıq məhsulları – bal festivalı”nda öz məhsullarımla iştirak edirəm. Dövlət tərəfindən hər arı ailəsinə görə mənə hər il 10 manat məbləğində subsidiya ödənilir. Bu gün muxtar respublikamızda arıçılığın inkişafına yaradılan şərait göz qabağındadır. Sahibkarların pulsuz dərmanla təmin edilməsi, hər bir arı ailəsinə görə subsidiyanın və arıçılara güzəştli kreditlərin verilməsi bu sahənin inkişafına geniş şərait yaradır. Biz arıçılara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdaram. Çalışacağam ki, arı ailələrinin sayını artırım, çeşidli məhsullar istehsal edim.

Arıçılığın sirlərindən danışan həmsöhbətim deyir ki, o, böyük zəhmət tələb edir. Arılara övladına göstərdiyin kimi qayğı göstərməli, onlara böyük həssaslıqla yanaşmalısan. Arıçılıq təsərrüfatının inkişafı üçün pətəklərin yerləşdiriləcəyi yer, hava şəraiti nəzərə alınmalı, onların sağlamlığı təmin edilməlidir. Bunun üçün arıların saxlandığı yeri mütəmadi təmizləmək, zərərvericilərdən qorumaq, pətəkləri vaxtlı-vaxtında dərmanlamaq lazımdır. Yaz-yay arılar üçün ən yaxşı fəsillərdir. Bu fəsillərdə gül-çiçək bol olur. Arılar yaxşı qidalana bilirlər. Yay vaxtı onları, əsasən, dağa çıxarırıq. Dağ şəraiti ana arıların ömrünün uzanmasına kömək edir.

Balı Allahın insanlara göndərdiyi möcüzəvi nemət adlandıran müsahibim onun faydalarından da danışdı: – Bilirsiniz ki, Naxçıvan balı hər yerdə adla tanınır. Onun keyfiyyətinə, təbiiliyinə söz ola bilməz. Bu nemət min bir dərdin dərmanıdır. O ən ləziz qida kimi həm də insanların uzunömürlülüyünə şərait yaradır. Baldan müxtəlif məlhəmlər də hazırlanır. Arıçılıqda balı düzgün qablaşdırmaq da mühüm şərtlərdəndir. Ağzı kip bağlanan, paslanmayan metaldan hazırlanmış qabda bal uzun illər qalır.

Tivinin digər bir ailə təsərrüfatçısı, arıçı Nizami Əliyev də 20 ildir, bu sahə ilə məşğul olur. O deyir: – Arıçılıq mənim əsas məşğuliyyət sahəmdir. Hazırda 120 arı ailəsinə qulluq edirəm. Arı məhsullarından – mum propolis, çiçək tozu, güləm və digər məhsullar tədarük edirəm. Pətəkdən ildə bir ton bal götürürəm. Bu məhsullar təmiz və keyfiyyətli olduğu üçün muxtar respublikamızdan kənarda da maraqla qarşılanır, alıcısı çox olur. 2016-cı ildə “Arıçılıq məhsulları – bal festivalı”nda hazırladığım məhsullara görə ikinci yeri tutmuşam. Ötən il mənə dövlət tərəfindən 115 arı ailəsinə görə subsidiya verilib. Allah dövlətimizin bayrağını daim uca etsin. Bizi heç vaxt diqqətdən kənar qoymur. İndi əsas məqsədim təsərrüfatımı inkişaf etdirmək və muxtar respublikamızda bu sahənin daha da irəliləməsinə töhfə verməkdir.

Müsahibim qeyd etdi ki, aprel və may aylarında havaların arabir yağışlı keçməsinə baxmayaraq, builki yaz mövsümü arıçılıq təsərrüfatları üçün əlverişlidir. Yağan yağışlar da təbiətə canlılıq, əlvanlıq qatıb. Ona görə də bu il məhsuldarlıq yüksək olmalıdır.

Hər iki arıçının söhbətindən görünür ki, muxtar respublikamızda bu sahə həmişə diqqətdə saxlanılır. Biz də inanırıq ki, “İxrac ili” arıçılar üçün də uğurlu olacaq, arıçılıq təsərrüfatlarının fəaliyyəti istiqamətində həyata keçirilən mühüm tədbirlər muxtar respublika iqtisadiyyatının inkişafına geniş imkanlar yaradacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Yaylaq mövsümünə hazırlıq işləri davam etdirilir

***Heyvanların yaylaqlarda otarılması onların yemlərə olan tələbatının ödənilməsi ilə yanaşı, istehsal olunan məhsulların dadına və keyfiyyətinə görə fərqlənməsinə, ucuz başa gəlməsinə şərait yaradır. Bu cəhətdən heyvanların yaylaq şəraitində saxlanılmasının böyük əhəmiyyəti vardır.***

Heyvanların yaylaqda, açıq və təmiz havada saxlanılması orqanizmin fizioloji funksiyalarına yaxşı təsir göstərir, orqanizmdə maddələr mübadiləsini artırır, cavan mal-heyvanın boy artımına və inkişafına kömək edir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Vəli Novruzov, xidmətin bir sıra əməkdaşları Şərur Rayon Baytarlıq İdarəsinin müdiri Cəlal Kamalovun başçılıq etdiyi həkim briqadası ilə birlikdə Şahbuz rayonunun Keçəldağ yaylağında heyvanların yataq yerlərində aparılan dezinfeksiya işləri ilə tanış oldular.



Xidmətin rəisi kənd təsərrüfatı heyvanlarının yaylaq dövrü ərzində məhsuldarlığının yüksəldilməsi və sağlamlığının qorunması üçün heyvan sürülərinin yaylaqlara aparmadan öncə kliniki müayinədən keçirilməsi, yataq yerlərinin və su hövzələrinin ətraf ərazilərində dezinfeksiya işlərinin aparılması, heyvanları köçürməzdən əvvəl epizootik yol marşrutu xəritəsinin müəyyən edilməsi, heyvan sürülərinin əvvəlcədən müəyyənləşdirilmiş marşrutla hərəkətinin təmin edilməsi üçün bir sıra tapşırıqlar verib.

Bildirilib ki, muxtar respublikada əhalinin keyfiyyətli ət və süd məhsullarına olan tələbatının ödənilməsi məqsədilə heyvandarlığın inkişafına xüsusi diqqət yetirilir. Baytarlıq xidməti də bu məqsədlə müasir tələblərə uyğun qurulub, maddi-texniki baza möhkəmləndirilib. Qəbul olunmuş Dövlət proqramlarının icrası məqsədilə heyvanların yaylaq şəraitində profilaktik peyvəndləmə tədbirlərinə cəlb edilməsi, müşahidə olunan xəstəliklərə qarşı operativ tədbirlərin həyata keçirilməsi, yaylaqlarda zoobaytarlıq və zoogigiyenik tədbirlərin vaxtında və düzgün həyata keçirilməsi daim nəzarətdə saxlanılmalıdır.

Otlaqlarda otarmanın idarə edilməsi mövzusuna da toxunan xidmət rəisi vurğulayıb ki, əgər heyvanlar bir yerdə uzun müddət otarılarsa, onlar çəki və məhsuldarlığını, bitkilər isə tez bərpaolunma qabiliyyətini itirər. Otarılacaq heyvanların say həddi hər bir otlaq sahəsinin bioloji məhsuldarlığı nəzərə alınmaqla müəyyənləşdirilməlidir. Otlaqların həddən artıq yüklənməsi torpaqlarda bitki potensialının itməsinə, çim qatının dağılmasına, onların eroziyaya uğramasına, hətta istifadə dövriyyəsindən çıxmasına səbəb olar. Bu sahələri eroziyadan mühafizə etmək və onların məhsuldarlığını artırmaq ətraf mühitin mühafizəsi və heyvandarlığın inkişafı baxımından əhəmiyyətlidir. Otlaqlardan qaydasız istifadə etmək istər təsərrüfat, istərsə də sanitargigiyenik cəhətdən əlverişli deyildir. Çünki belə otarmada yüksək süd məhsulu almaq, heyvanların diri çəkisini artırmaq mümkün olmur. Buna görə də otlaqlardan səmərəli istifadə olunmalı və xəstəliklərə qarşı mübarizə tədbiri kimi növbəli otarma sistemi tətbiq edilməli, sahibkarların bu sahədə maarifləndirilməsi işləri gücləndirilməlidir.

**Elnur ƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin əməkdaşı***

# Naxçıvanda kitabxana işi qədim tarixə malikdir

## Qədim və orta əsrlərdə diyarımızda dövrün zəngin kitabxanaları fəaliyyət göstərmişdir

***Mənəvi sərvətlərimizdən sayılan kitabların qorunub-saxlanılmasında, gələcək nəsillərə çatdırılmasında kitabxanalar mühüm rol oynayır. Kitabxanalar bəşər tarixinin çox qədim dövrlərində meydana gələrək fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi mühitdən asılı olaraq formalaşmış, tarixi inkişaf prosesində öz hamisi olan cəmiyyətə xidmət etmiş, onun informasiya tələbatını ödəmişdir. Kitabxana işi milli tərəqqinin mühüm göstəricilərindəndir. Bu, bütün zamanlarda dəyərləndirmə vasitəsi kimi diqqət mərkəzində olmuşdur.***



Qədim sivilizasiya mərkəzlərindən olan Naxçıvanda kitabxanaçılığın tarixi burada zaman-zaman baş verən proseslərlə, mədəniyyət tarixi ilə sıx bağlı olmuşdur. Məlumdur ki, hələ XI-XII əsrlərdə Naxçıvan görkəmli şəxsiyyətlərin vətəni kimi tanınırdı. Bu, bölgənin elmi və mədəni mühitinin göstəricilərindən biri olaraq diqqəti cəlb edir. Həmin dövrdə naxçıvanlı filosof Əbu Ömər Əbu Əli ibn Sinanın "Qanun" əsərini şərh və təhlil edən Nəcməddin Naxçıvani, Həsən ibn Ömər Naxçıvani öz kitabları ilə yetərincə nüfuz qazanmışdılar. Qaynaqlardan bəlli olduğu kimi, başqa ölkələrdən gəlmiş, Naxçıvanda Atabəylər sarayında sığınacaq tapmış məşhur söz ustadlarından Əsirəddin Ağsunafi, Şərafəddin Şafrux və Zahirəddin Fərabi sənətdə silinməz izlər qoymuşdular. Dahi Nizaminin həmyerlisi Əbu Bəkr Xosrov oğlu Atabəylərin diqqətini cəlb etmiş, onu Gəncədən Naxçıvana gətirmişdilər. 30 ildən artıq Naxçıvanda yaşayan sənətkar gənc şahzadələrin müəllimi və tərbiyəçisi olduğundan "Əl-Ustad" adı ilə tanınmışdır. Onun qələmindən çıxan 6 poemanın hamısı Atabəylərə həsr olunmuşdu. İyirminci və iyirmi altıncı hekayətləri Naxçıvana həsr edilən "Munisnamə" əsərinin maraqlı taleyi vardır.

Əsərin yeganə əlyazması 800 il Naxçıvanda hifz olunmuş, 1920-ci ildə İngiltərəyə aparılaraq Britaniya muzeyində "Min bir gecə" adı ilə saxlanılmış, 50 il sonra bu əlyazma ingilis alimi Q.M.Mereditin diqqətini cəlb etmişdir. Kitabın səkkiz əsr Naxçıvanda zədəsiz və itkisiz şəkildə qorunub-saxlanılması burada tarixən kitaba və kitabxanaya həssas münasibətə parlaq sübutdur. Bu cür faktlar kitabxana işinin tarixində çox dəyərlidir və fikrimizcə, onların gənc nəslə öyrədilməsi kitaba məhəbbət və münasibət hissini formalaşdırmaqla yanaşı, bir örnək olaraq kitabxana tariximizlə bağlı qürur, iftixar yaradır.

Doğrudan da, kitabxana işinin tarixinə aid biliklər bizə təkcə keçmişi öyrənmək üçün yox, müasirliyi yaxşı başa düşmək, əhaliyə kitabxana xidmətini hərtərəfli yaxşılaşdırmaq üçün də zəruridir. Diyarımızın çox qədim zamanlardan misilsiz sənət örnəklərinə sahib olması ilə bağlı biliklər milli mədəniyyətə varislik hissinin möhkəmləndirilməsində misilsiz əhəmiyyətə malikdir. Ona görə də, gənc nəslin kitabxana tariximizi dərindən öyrənməsi mühüm vəzifələrdəndir.

O da məlumdur ki, XIII yüzillikdə Naxçıvan mədrəsələrində kitabxanalar mövcud olub. Bu kitabxanalarda müxtəlif işçilər çalışıblar. Bu isə kitabxana işinin idarəetmə strukturunun öyrənilməsində çox əhəmiyyətli faktordur. Bölgədə XII əsrin sonlarından məktəb və mədrəsələrin fəaliyyət göstərməsini nəzərə alsaq, Naxçıvanda kitabxana tarixi barədə müəyyən fikir və qənaətlər əldə edə bilərik.

Həmin mədrəsələrdə və onların kitabxanalarında olan dərslikləri tədqiqatçılar üç yerə bölürlər: *Azərbaycanda hazırlanan kitablar; Azərbaycandan kənarda hazırlanan kitablar; başqa dillərdə olan kitablar.*

Bu bölgüyə əsasən hansı ehtimalları ortaya qoymaq olar? Deməli, həmin dövrdə Azərbaycanda, onun tərkib hissəsi olan Naxçıvanda kitablar hazırlanırdı. Başqa ölkələrlə mədəni əlaqələr o dərəcədə inkişaf edibmiş ki, kənardan da mədrəsə kitabxanalarına kitab gətirilirmiş. Onların arasında başqa dillərdə olan kitablar da var imiş. Fikrimizcə, kitabxana tariximizdə bu faktlar o dövrün kitabxanalarında mövcud olan çoxdilli sistem olduğunu təsdiq etmək baxımından olduqca əhəmiyyətlidir.

Hüseyn Tağıyevin belə bir fikri də diqqəti çəkir: "Azərbaycan alimləri və şairləri yuxarıda izah edilən səbəb üzündən hansı dildə yazmaqlarından asılı olmayaraq, doğma xalqının milli və mədəni xüsusiyyətlərini daim hifz edib saxlamışlar". Bu yönümdən kitabxana tarixinin ədəbiyyat tarixi ilə vəhdətdə araşdırılması və tədrisi çox zəruri məsələlərdən biridir. Bu zaman mədrəsə kitabxanaları ilə yanaşı, saray kitabxanalarının da müstəsna əhəmiyyəti çox ciddi faktor kimi nəzərə alınmalıdır.

XIV əsrdə şair, tərcüməçi və alim Savəci Məhəmməd, ədəbiyyatşünas Fəxrəddin Hinduşah Naxçıvani, onun oğlu, tarixçi Məhəmməd ibn Hinduşah Naxçıvani (onun "Vəzifələrin müəyyən edilməsinə dair kitab təlimatı" və başqa kitabı var idi), təbii ki, mədəniyyət tariximizin görkəmli simaları idi.

Həmin dövrdə yaşamış məşhur şair Beyrək Quşçuoğlu da Naxçıvan mənşəli sənətkar kimi dəyərləndirilir. Orta əsrlərdə yaşamış sənətkarların çoxunun şəxsi kitabxanaya və ya kitab rəfinə malik olması tədqiqatlarda öz əksini tapmışdır.

Professor Abuzər Xələfov yazır: "Cəmiyyətdə yaranan tələbatla əlaqədar olaraq kitabxanaların sayı durmadan artır, yeni-yeni kitabxana tipləri və növləri meydana gəlirdi. Müxtəlif dövrlərdə kitaba və kitabxanaya milli tərəqqinin mühüm vasitələrindən biri kimi önəm verən görkəmli şəxsiyyətlər bu məsələdə əsl nümunə göstərmişlər. Yeni kitabxana tiplərinin və növlərinin meydana gəlməsi isə mədəni tərəqqinin mühüm göstəricisi kimi diqqəti cəlb edir.

Tədqiqatlardakı belə bir qeyd, əlbəttə, hər birimizdə acı təəssüf hissi yaradır: "Xüsusilə VII, IX və XIII əsrlərdə yadellilərin Azərbaycan torpağına basqınları xalqımız üçün böyük fəlakət törətmiş, mədəni abidələrin, o cümlədən kitabların məhv olmasına və oğurlanmasına səbəb olmuşdur. O dövrdə Azərbaycandan aparılan bir çox qiymətli əlyazmaların bu gün belə, müxtəlif ölkələrin kitabxanalarında saxlanıldığını tarixi sənədlər sübut edir".

Tarixdən məlumdur ki, Naxçıvan Azərbaycanın ən çox döyüş meydanına çevrilən bölgələrindən olmuşdur. Yuxarıda qeyd edildiyi kimi, 800 il Naxçıvanda hifz olunan "Munisnamə" də bölgənin ağır günlərində İngiltərəyə aparılmışdır. Bu hadisələr milli mədəniyyətimizə ağır zərbələr vurmaqla yanaşı, onun tarixinin öyrənilməsində ciddi çətinliklərdə yaradır. Bütün bunlara baxmayaraq Naxçıvan mühüm mədəniyyət mərkəzlərindən olmaqla zaman-zaman bəşər sivilizasiyasına öz töhfələrini vermişdir. Bu sahədə kitabxanaçılıq tarixi də misilsiz nailiyyətlərlə zəngin olmuşdur.

Qeyd olunmalıdır ki, Ordubad şəhərindəki Zəhir Əd-Dövlə Məhəmməd mədrəsəsi XVIII yüzillikdə nəinki Naxçıvanda, bütün Azərbaycanda əhəmiyyətli tədris müəssisəsi kimi tanınmışdı. Ərazicə çox da böyük olmayan bu bölgə öz məşhur şəxsiyyətləri ilə həmişə seçilmişdir. XVI əsrdə Mirzə Sadıq Ordubadi, Ziyayi Ordubadi və başqaları milli tərəqqiyə əvəzsiz xidmətlər göstərmişlər. Təsadüfi deyil ki, xələfləri onların parlaq ənənələrinə həmişə sadiqlik göstərmiş, mühüm işlər görmüşlər. Əlbəttə, Naxçıvanda kitabxana tarixindən söz açarkən bütün bunlara diqqət yetirmək çox zəruridir. 1905-ci ildə Ordubad şəhərində qiraətxana açılır. Bu barədə Məmməd Səid Ordubadinin "Həyatım və mühitim" əsərində də bəhs olunur. Mir Adilin evində açılan bu qiraətxana müxtəlif qəzetlər alırmış, burada dram dərnəyi də təşkil edilibmiş.

***Göründüyü kimi, qiraətxana şəhərdə əsl mədəni mərkəz rolunu oynayırmış. Ordubadinin dediyinə görə, bu qiraətxana 1914-cü ilə qədər işləmişdir. "Molla Nəsrəddin" jurnalının 1907-ci il 6 yanvar nömrəsində isə Naxçıvandakı "Səadət" qiraətxanasından bəhs olunur. Əlbəttə, bütün bu tarixi faktlar Naxçıvanın çox qədim dövrlərdən elm, irfan, ziyalılıq mərkəzi kimi formalaşmağa başladığını təsdiq etməklə yanaşı, kitabxana və mütaliə mədəniyyətimizin özünəməxsus cəhətlərinin öyrənilməsində də xüsusi əhəmiyyət kəsb edir.***

**Sədaqət NEMƏTOVA**
*Naxçıvan Dövlət Universitetinin dosenti*

# Vəzifələr icra edilir

***Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş dövlət proqramları və tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını 2020-ci ilin may ayında da diqqətdə saxlamışdır.***

May ayında Naxçıvan Dövlət Televiziyasının öz teleməhsulları efirin 72 faizini əhatə etmiş, digər telekanalların istehsalı olan materialların yayımı minimum həddə endirilmişdir. Bəhs edilən dövrdə Naxçıvan Dövlət Televiziyası ilə Mədəniyyət Nazirliyinin birgə layihəsi əsasında tamaşaların, konsert proqramlarının, muzey ekskursiyalarının canlı yayımlanması davam etdirilmişdir.

Naxçıvan Dövlət Radiosu da rəngarəng canlı proqramlarla dinləyiciləri salamlamışdır. May ayında radionun keçidləri yenilənmiş, təqdim olunan musiqi proqramları üçün xüsusi musiqilər seçilmişdir.

Ötən ay şura tərəfindən "Naxçıvanın səsi" radiosuna yaradıcı köməklik göstərilmiş, radioverilişlərin daha geniş auditoriyaya çatdırılması üçün təkliflər irəli sürülmüşdür.

Monitorinq müşahidələrinə əsasən qeyd edilməlidir ki, ötən ay "Kanal 35" televiziyasında vizual görüntüsü aşağı olan materiallar efirə verilməmişdir. Muxtar respublikamıza həsr olunmuş videomateriallarin yayımı istiqamətində milli dəyərlərimiz, tamaşa və konsert proqramları da daxil olmaqla, 48 videomaterial, həmçinin Ramazan ayına həsr olunmuş "On bir ayın sultanı" adlı veriliş televiziyada yayımlanmışdır.

Bəhs olunan dövrdə şura muxtar respublikada yayımlanan telekanalların fəaliyyətini də izləmiş, təhlillər apararaq aidiyyatı üzrə məlumat vermişdir. May ayında muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında baş verən hadisələrə ölkə telekanallarının "Xəbərlər" proqramlarında da (Lider TV, İTV) yer verilmişdir.

Tədbirlər planına uyğun olaraq şura sosial şəbəkələrdə Naxçıvanla bağlı paylaşılan məlumatların da təhlilini aparmış, muxtar respublikanın zəngin tarixi-mədəni irsi, müasir inkişafı ilə bağlı video və fotomaterialların, eyni zamanda xəbərlərin yayılmasında yaxından iştirak etmişdir. Bəhs edilən dövrdə şura sosial şəbəkələrdə Naxçıvanla bağlı 500-dən çox foto və video, həmçinin xəbər paylaşmışdır.

Şura tərəfindən həmin dövrdə sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində Naxçıvan Muxtar Respublikasında əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu, diyarımızın qədim tarixi abidələri, zəngin turizm potensialı ilə bağlı mərkəzi mətbuat orqanları üçün 140 xəbər, 5 reportaj, 1 fotoreportaj, 2 müsahibə, 1 analitik material hazırlanmışdır. Şura tərəfindən Naxçıvan televiziyasının "Azərbaycanın ürəyidir Naxçıvan" sənədli filminin Bolqarıstanda keçirilən turizm film festivalında qalib olması Türkiyə mətbuatında geniş işıqlandırılmışdır. Həmçinin may ayında "Eurasiaticanews" portalının rəhbərinin bloq saytında şura üzvünün Naxçıvanla bağlı məqaləsi yerləşdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası
Televiziya və Radio Şurası**

# Tələbələr Beynəlxalq Tibb Mərkəzi həkiminin cərrahi əməliyyatını onlayn izləyiblər

Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin həkim, rezident və tələbələri "Qarıngərmə əməliyyatı – abdomenoplastikanın icrası və sonrakı dövrün izahı" adlı cərrahi əməliyyatı onlayn şəkildə izləyiblər. "İnternational Medical Center 2" (Beynəlxalq Tibb Mərkəzi) klinikasının baş həkimi və ümumi cərrahı Elvin Əliyevin həyata keçirdiyi, 2 saatdan artıq davam edən əməliyyat maraqla qarşılanıb. Koordinasiyanı və canlı videotəqdimatı Tibb fakültəsi tələbələri tərəfindən təşkil edilən onlayn əməliyyatda müəllim və tələbələrin sualları da cavablandırılıb.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin məzunu olan Elvin Əliyev 2011-2016-cı illərdə Azərbaycan Tibb Universitetində rezidentura təhsili alıb. O, plastik cərrahiyyə, qarıngərmə, body lifting üzrə Türkiyədə ixtisas kursunda olub, bu sahədə uğurlu əməliyyatlar aparmaqla estetik-plastik cərrahiyyə üzrə ixtisaslaşıb.

**Səadət Əliyeva**

# Onlayn açıq dərs keçilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə əlaqədar müvafiq sərəncamlarının icrası istiqamətində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə tədbirlər davam etdirilir. Bu tədbirlər çərçivəsində Naxçıvan Müəllimlər İnstitutunun Kitabxana-informasiya ixtisası üzrə təhsil alan III kurs tələbələrinə "Çap əsərlərinin uçota alınması və onlara biblioqrafik təsvirin verilməsi" mövzusunda onlayn açıq dərs keçilib.

Tədbirin moderatoru, kitabxananın direktoru Kamal Axundov adıçəkilən sərəncamın muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində oxuyan gənclərimizin dərin elmi biliklərə yiyələnmələrində və onların seçdikləri ixtisaslar üzrə tam hazırlıqlı mütəxəssislər kimi yetişməsində böyük əhəmiyyətindən danışıb.

Kitabxananın şöbə müdiri Nüşabə Seyidova "Çap əsərlərinin uçota alınması və onlara biblioqrafik təsvirin verilməsi" mövzusunda geniş mühazirə ilə çıxış edib.

Sonra mövzu ətrafında tələbələrlə geniş müzakirələr aparılıb və onları maraqlandıran suallar kitabxana əməkdaşları tərəfindən ətraflı cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası
Mədəniyyət Nazirliyinin
mətbuat xidməti**

# Fənn olimpiadasının final turu olub



Aparılan uğurlu təhsil siyasəti çərçivəsində respublika və muxtar respublika fənn olimpiadaları, Beynəlxalq Riyaziyyat Olimpiadasının diyarımızda keçirilməsi istedadlı şagirdlərin üzə çıxarılmasında mühüm rol oynayır. Belə tədbirlərin davamı olaraq dünən respublika fənn olimpiadasının keçirilməsi dəqiq elmlər sahəsində istedadlı şagirdlərin potensialının inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

Pandemiya ilə əlaqədar təxirə salınmış respublika fənn olimpiadasının respublika mərhələsinin fizika və riyaziyyat fənləri üzrə final turu Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə keçirilib. Olimpiada zamanı bütün fənlər üzrə sualları cavablandırmaq üçün şagirdlərə 4 saat vaxt verilib.

Fevral ayında keçirilmiş respublika mərhələsinin yarımfinal turunun nəticələrinə əsasən muxtar respublika üzrə uğur qazanmış 87 şagirddən dünən keçirilən olimpiadada riyaziyyat fənni üzrə 20, fizika fənni üzrə isə 3 olmaqla, ümumilikdə, 23 şagird iştirak edib. İştirakçıların təhlükəsizliyinin təmin edilməsi, sağlamlığının qorunması məqsədilə bütün qabaqlayıcı tədbirlər görülüb.

Qeyd edək ki, iyunun 9-da keçiriləcək final turunda Azərbaycan dili və ədəbiyyat fənni üzrə 18, coğrafiya fənni üzrə 12, tarix fənni üzrə 11 olmaqla, ümumilikdə, 41 şagird, iyunun 11-də keçiriləcək final turunda isə kimya fənni üzrə 10, informatika fənni üzrə 2, biologiya fənni üzrə isə 11 olmaqla, ümumilikdə, 23 şagird iştirak edəcəkdir. Növbəti final turları da Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə keçiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası
Təhsil Nazirliyinin mətbuat xidməti**

# Alış-verişin yeni ünvanı




***25-30 il bundan öncə muxtar respublikamızdakı ticarət səviyyəsi və ticarət mədəniyyəti heç də ürəkaçan deyildi. Bir vaxtlar bəxtiyarlar ölkəsi kimi zehnimizə yeridilən sovetlər dövründə sərvətlərimiz talan edilir, insanlarımız qul kimi işlədilir, əvəzində aldığımız məvacibə isə nə müxtəlif çeşidli əyin-baş, nə də ki yemək-içmək ala bilirdik. Nə indiki kimi gözəl evlər inşa edə, nə də içərisinə rahat əşyalar yığa bilirdik. Gəlin köçürüb, oğul evləndirmək istəyənlər isə "qardaş" respublikalara üz tutmaq məcburiyyətində qalır, mebeli də, cehizlik əşyaları da oradan alıb gətirməli olurdular. Keçmiş Sovetlər İttifaqında istehsal olunan şablon, yeknəsəq məhsullar hesabına ağ-qara rəngdən ibarət dünyaya dönmüşdü həyatımız…***

Yaxşı yadımdadır, hər dəfə qonşuluqda yaşayan bir alverçi qadın kəndimizə gələr, "xarici istehsaldır, ancaq tapıb gətirmişəm bunları, vur-tut bircə dənədir", – deyə kiminsə köməkliyi ilə aldığı əşyaları beşqat qiymətə satardı. Həmin malları isə kolxozda günün altında günlərlə işləyib alın tərini





torpağa qatanların almaq imkanı olmazdı. Çünki, necə deyərlər, bu məhsulların "öz xiridarları, sahibləri" var idi… İndi həmin günləri xatırlayanda müasirlərimizə həsəd aparıram. Bu gün muxtar respublikamızda yaşayan hər bir sakin istədiyi kimi ev inşa edir, içərisinə zövqünə uyğun mebeli alır, bağ-bağçasında könlündən keçən kimi gözəllik, istirahət guşəsi yarada bilir. Bir sözlə, zəhmətlə işləyib qazanırıqsa, səfasını da görürük. Sevindirici hal odur ki, bütün bunların əksəriyyətinə yerli istehsalın hesabına nail oluruq. İndi uzağa getməyə ehtiyac qalmayıb. Diyarımızda həm çoxsaylı ticarət obyektləri, yerli və xarici brend məhsulların satışı ilə məşğul olan mağazalar, həm də yüksək ticarət mədəniyyəti və alıcılıq qabiliyyəti formalaşıb. Necə deyərlər, evimizin içində istədiyimiz hər məhsula əlimiz çatır. "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqı tərəfindən yaradılan, bu yaxınlarda istifadəyə verilən "Decoria" Alış-Veriş Mərkəzi də istənilən tikinti məhsullarını, məişət avadanlıqlarını, ev əşyalarını ala biləcəyimiz ünvanlardan biridir.

Fəaliyyətə başladığı qısa zamanda müştərilərin rəğbətini qazanan alış-veriş mərkəzində satış müdiri Nizami Babayevlə həmsöhbət olur, onunla birlikdə mərkəzin bir-birindən zəngin guşələrini gəzirik. O, 4000 kvadratmetrlik ərazidə yerləşən mərkəzdə muxtar respublika əhalisinin tələbatına uyğun olan, keyfiyyətli və sərfəli qiymətlərlə təklif edilən bütün növ məişət əşyalarının, elektrik materialları və avadanlıqlarının, müxtəlif növ mebellərin, avtomobil aksesuarlarının satışı bölmələri, anbar və digər xidmət sahələri ilə bizi əyani şəkildə tanış edir. Nizami Babayev qeyd edir ki, mərkəzin 3000 kvadratmetri satış bölməsinin, 1000 kvadratmetri anbar və ofis bölmələrinin payına düşür. Yerli məhsullarla yanaşı, çeşid bolluğuna nail olmaq və alıcı tələbatını yetərincə ödəmək üçün Almaniya, Hollandiya, Türkiyə, Çin və digər ölkələrin istehsalı olan, ümumilikdə, 8500 çeşiddən çox məhsulun satışı həyata keçirilir. Hədəfimiz məhsul sayını 17 min çeşidə çatdırmaqdır.

Mərkəzlə tanışlıq zamanı şahidi olduq ki, mətbəx, yemək dəstlərini, elektrik materialları və avadanlıqlarını, xırdavat, təmir-tikinti alətlərini, plastik boruları, divar kağızlarını, yataq və bağça mebel dəstlərini, taxta və seyf qapılarını, hədiyyəlik əşyaları, məişət texnikalarını, dəftərxana ləvazimatlarını, təmizlik məmulatlarını, təhlükəsizlik vasitələri və geyimlərini, boya və izolyasiya məhsullarını, hamam və avtomobil aksesuarlarını və digər malları buradan sərfəli qiymətə əldə etmək mümkündür.

Burada Kredit şöbəsi də fəaliyyət göstərir. Mərkəzin kredit mütəxəssisi Nurlana Məmmədova ilə həmsöhbət oluruq. O deyir ki, müvafiq sənədləri təqdim etməklə 3 aydan 6 ayadək kreditlə məhsul almaq olar.

Naxçıvan şəhər sakini, uzun illərdir, təmir-tikinti işləri ilə məşğul olan Nurəli Rzayev mərkəzdə hər cür materialın olduğunu bildirərək, həm də onların sərfəli qiymətlərlə satıldığını vurğulayır. Onun sözlərinə görə, bu materiallarla yanaşı, tikintidə, təmirdə istifadə etdiyimiz avadanlıqları da buradan almaq olar. O, alış-veriş mərkəzinə yeni inşa etdiyi evin hamamı və həyəti üçün bəzi materialları almağa gəlib. Həyət üçün çox gözəl döşəmə daşlar seçib. Müsahibim deyir ki, bu daşların hamısı öz məhsulumuzdur. "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan bir-birindən gözəl məhsulların çeşidliliyi insana ürəyi istədiyini seçməyə imkan verir. İllər öncə, baxmayaraq ki, həmin yeraltı sərvətlərimiz, elə işgüzar insanlarımız da var idi, belə nəfis material və əşyaları almaq üçün, necə deyərlər, gərək lap dünyanın o başına gedib çıxa idin. İndi, şükür Allaha, hər cür şərait yaradılıb. Belə ticarət ünvanlarının olması istehsal edəni də, alanı da, elə satanı da – hər kəsi sevindirir. Bir sözlə, qurub-yaradan dövlətimiz var olsun.

Mərkəzin Mebel satışı şöbəsində ev əşyaları seçən Şərur şəhər sakini Qətibə Əliyevaya yaxınlaşıb onunla da həmsöhbət oluruq. Nənənin 70-ə yaxın yaşı olduğunu öyrənirik. O deyir:

– Qızım, bu gün buraya nişanlı nəvəm üçün cehizlik əşyalar seçməyə gəlmişik. İstədiyim hər cür ev əşyasının satışının bir yerdə təşkil edilməsi çox yaxşıdır. Belə olanda insan şəhəri dükanbadükan gəzməli olmur, hər nə almaq lazımdır bir yerdən alıb rahatlıqla gedir evinə. Mebellərin Naxçıvanda yığıldığını öyrənəndə çox sevindim. Ay bala, bizim vaxtımızda belə gözəl əşyaları evin içindəcə almaq olardı? İndi, şükür Allaha, bolluqdur, nə istəyirsən al, apar. Mətbəx, qonaq, yataq otağı üçün mebelləri, məişət avadanlıqlarını da buradan aldım. Hələ, üstəlik, yeni dünyaya gələn nəticəmin beşiyini də. Aldığım əşyaların bir qismini kreditlə götürdük. Xeyir iş elədir ki, gərək xeyli xərc çəkəsən, ələlxüsus da qız köçürəndə. Burada Kredit şöbəsinin fəaliyyət göstərməsi bizə böyük köməkdir.

Şəhər sakini Gülnarə Əliyeva bağ evi üçün olan əşyaların çox gözəl olduğunu deyərək söhbətimizə qoşulur:

– Deyirlər ki, "min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır". Neçə gündür, bu mərkəzin açıldığını eşitmişdim, amma işgücdən fürsət tapıb gələ bilmirdim. Bu gün, nəhayət, zaman ayırıb buraya baş çəkməyi düşündüm. Yaxşı ki, gəldim, çünki alış-veriş həm insanın ruhunu təzələyir, həm də evinə lazım olanları almaq imkanın olur. Burada istədiyin əşyanı tapa bilərsən. Bir evə nə lazımdırsa, hamısı var. Mən də bağ evimiz üçün əşyalar, əkin sahəmizdə istifadə etmək üçün otbiçən, dərmansəpən, odunkəsən alətlər aldım. Yaradılan şərait ürəyimizcədir.

Siması hər ötən saat dəyişən, günü-gündən gözəlləşən qədim Naxçıvanımızda bir-birindən yaraşıqlı mədəniyyət obyektlərinin, təhsil ocaqlarının, yaşayış binalarının inşa edilməsi ilə yanaşı, bu cür ticarət mərkəzlərinin də açılması sakinlərin yaşayışına öz müsbət təsirini göstərir. Çünki yaradılan bu şərait həm vaxtımıza və büdcəmizə qənaət, həm alıcı tələbatını yerli məhsullar hesabına layiqincə ödəmək, ürəyimiz istəyən mənzil şəraiti yaratmaq deməkdir, həm də məşğulluğun təmin edilməsi baxımından təqdirəlayiqdir.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2020-ci ilin may ayında verilən elektrik enerjisinin həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2773 | 205,2 | 205,2 | 100,0 |
| 2. | Şərur rayonu | 1459 | 103,0 | 103,0 | 100,0 |
| 3. | Babək rayonu | 1090 | 77,4 | 77,4 | 100,0 |
| 4. | Ordubad rayonu | 805 | 56,9 | 56,9 | 100,0 |
| 5. | Culfa rayonu | 719 | 50,9 | 50,9 | 100,0 |
| 6. | Kəngərli rayonu | 616 | 44,0 | 44,0 | 100,0 |
| 7. | Şahbuz rayonu | 265 | 19,1 | 19,1 | 100,0 |
| 8. | Sədərək rayonu | 231 | 16,6 | 16,6 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 30070 | 2706,3 | 2716,5 | 100,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **38028** | **3279,4** | **3289,6** | **100,3** |

**Qeyd:** May ayında texniki itki nəzərə alınmaqla daxil olan 38 milyon 28 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 279 min 400 manat olmuş, cəmi 3 milyon 289 min 600 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,3 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin may ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | 185423 | 18862 | 18864 | 100,0 |
| 2. | Babək rayonu | 1485336 | 163337 | 163350 | 100,0 |
| 3. | Kəngərli rayonu | 487673 | 52082 | 52085 | 100,0 |
| 4. | Şərur rayonu | 1321285 | 138822 | 138828 | 100,0 |
| 5. | Culfa rayonu | 718320 | 75858 | 75860 | 100,0 |
| 6. | Ordubad rayonu | 725050 | 76841 | 76842 | 100,0 |
| 7. | Naxçıvan şəhəri | 1429502 | 159839 | 159841 | 100,0 |
| 8. | Şahbuz rayonu | 556480 | 61067 | 61067 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3621673 | 674137 | 748832 | 111,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **10530742** | **1420845** | **1495569** | **105,3** |

# Birinciliyin qalibi müəyyən olunub



***Naxçıvan Qarnizonunda hərbi qulluqçular arasında atletika və gimnastika üzrə birincilik keçirilib. Birinciliyin qalibi Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları olub.***



Hərbi qulluqçuların sürət, çeviklik və dözümlülüyünü yoxlamaq, güclü idmançı və komandaları müəyyən etmək məqsədilə keçirilən birincilikdə 15 komandada 220 idmançı mübarizə aparıb.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır!" devizi altında təşkil olunan birincilikdə atlet və gimnastlar turnikdə dartınma və aşaraq dayağa qalxma, paralel qollarda qolların dayaq vəziyyətində bükülüb-açılması, uzunluğa və hündürlüyə tullanma, 100 və 3000 metr məsafəyə qaçış, 400 metr məsafəyə estafet qaçışı yarışlarında özlərini sınayıblar.

Ümumi nəticələrə əsasən komanda hesabında 1-ci yerdə xüsusi təyinatlılar, 2-ci yerdə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları, 3-cü yerdə isə motoatıcılar qərarlaşıblar.

Birinciliyin nəticələrinə əsasən ilk üçlükdə qərarlaşan komanda və hərbi qulluqçulara Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklar təqdim edilib.

**Nəriman NƏCƏFOV**

## *Düzəliş*

"Şərq qapısı" qəzetinin 3 iyun 2020-ci il tarixli nömrəsində dərc olunmuş Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 19 iyun 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumatda Şahbuz rayonunun Biçənək kəndindəki yaşayış sahəsinin qiyməti 205.800 manat əvəzinə 185.800 manat oxunmalıdır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 419